Xarici İşlər naziri Ceyhun Bayramovun rusiyalı həmkarının vasitəçiliyi ilə Ermənistanın xarici işlər naziri ilə Moskvada keçirdiyi görüş yerli və beynəlxalq medianın aparıcı mövzuları sırasındadır. Bu da təsadüfi sayıla bilməz. Görüşün 11 saat sürməsi prosesin nə qədər mürəkkəb olduğunu, necə gərgin şəraitdə keçdiyini bariz şəkildə göstərir. Bəri başdan deyək ki, bu görüş üçün ölkəmiz müraciət etməyib, əksinə, görüş, dara düşmüş, "qalib ölkə" mifi yerlə - yeksan olmuş Ermənistanın israrlı xahişləri ilə baş tutub və biz orada iştirakdan imtina etməmişik. Çünki müzəffər ordumuz Ali Baş Komandanın rəhbərliyi ilə status-kvonu aradan qaldırıb, təmas xəttini sıradan çıxarıb və danışıqlar masasında güclü tərəf bizik. Bizim mövqeyimiz hərb meydanında da, sülh danışıqlarında da qətidir, aydındır, birmənalıdır: işğalçı qoşunlar ərazilərimizdən qeyd-şərtsiz çıxmalı, ərazi bütövlüyümüz bərpa olunmalıdır.



# Hərb meydanında da güclüyük, danışıqlar masasında da

Heç kəsə sirr deyil ki, artıq Azərbaycanda nəinki diplomatları, hətta ən sıravi vətəndaşı da erməni hiyləsi ilə aldatmaq mümkün deyil. Ermənistanın normal dövlət ola bilməməsi, öz cəmiyyətini və beynəlxalq ictimaiyyəti xəbiscəsinə aldatması da artıq "limitin tükənməsi" mərhələsindədir. Acı təcrübələrdən nəticə çıxararaq yaxşı bilirik ki, hazırkı humanitar atəşkəs yalnız birinci mərhələdir. Və gözlənildiyi kimi, qüvvəyə minməsinə dəqiqələr qalmışadək mövqelərimizə atəş açmaqda davam edən düşmən, atəşkəsin ilk saatlarından yenə öz ampulasındadır. Hərbçilərimiz, mülki şəxslər, cəbhədən uzaq bölgələrimiz atəşə məruz qalmaqdadır və təbii ki, sarsıdıcı cavablarını alırlar. Bununla bir daha sübut olundu ki, humanitar məqsədə xidmət edən atəşkəslə yanaşı, ehtiyat tədbirləri də paralel aparılmalıdır. Artıq atəşkəs danışıqlarında, digər ikitərəfli, çoxtərəfli platformalarda şərtləri məhz Azərbaycan müəyyən edir. Bu, o deməkdir ki, Azərbaycana qarşı hər hansı şərtlərin irəli sürülməsindən söhbət gedə bilməz və atəşkəs istəyən tərəf beynəlxalq hüquq normalarına əməl etməlidir. Bu sadə gerçəkliyi artıq hamı başa düşməlidir.

Cənab Prezidentin Hadrut qəsəbəsi və digər 8 strateji önəmli kəndin azad edilməsi ilə bağlı xalqa müraciətində vurğuladığı kimi, biz "məsələnin hərbi yolu yoxdur" tezisini qəbul etməmişik və mövqeyimizin düzgünlüyünü hərb meydanında ləyaqətlə göstərmişik. Göstərmişik ki, 30 ilə yaxın danışıqlarda iştirakımız bizim gücsüzlüyümüz deyildi, dünya sülhünə, bəşəri humanitar təfəkkürə, birgəyaşayışa, xoş baxışımız, xeyirxahlığımız idi. Bir halda ki bu nəcib davranış düzgün anlaşılmadı və əksinə, "Qarabağ Ermənistandır. Nöqtə" kimi sərsəmləmələr meydana çıxdı, Tovuza qanlı hücum, Goranboya diversiya qrupu göndərildi, bunlar azmış kimi, nəhayət, 27 sentyabrda düşmənin yeni hücumuna məruz qaldıq, o zaman, bu gün hərb meydanında yaşananların günahkarı axtarılırsa, yeganə günahkar var: Ermənistan dövləti!

Qeyd etməliyik ki, hərb meydanındakı əməliyyatlar respublikamıza qarşı artan siyasi-diplomatik təzyiqlər fonunda həyata keçirilir. Cənab Prezident bu siyasi-diplomatik təzyiqlərə sinə gərir, məharətli diplomatik addımlarla ölkəmizə qarşı olan təzyiqləri neytrallaşdırır. Belə olan halda, Moskva danışıqlarından imtina düzgün addım olmazdı. Bu danışıqlarda iştirak etməklə, Ermənistanın və havadarlarının bir araya gələrək, respublikamıza qarşı vahid diplomatik cəbhə təşkil etməsinin qarşısını almış olduq.

Humanitar atəşkəsə Azərbaycanın birtərəfli qaydada "Yox!" deməsi, Ermənistanın mövqeyini gücləndirərdi. İndi sizə açıq şəkildə deyirik: buyurun, biz hərb meydanında da, sülh masasında da sözümüz bütöv və etimadlıdır. Özü də, dövlət başçımız səviyyəsində elan edilib ki, Moskva danışıqlarında iştirakımız işğalçıya son şansdır, son şans! Yox, əgər bu tarixi şansı da düzgün qiymətləndirə bilməsələr, zərər görən ilk növbədə özləri olacaq! O zaman, zəhmət çəkib, yeni tabutlar, yeni matəm çələngləri sifariş verərlər.

Bizim mövqeyimiz haqlı, rəhbərimiz qətiyyətli, əhalimiz dövlətcanlı, vətəncanlı, ordumuz güclüdür! Belə olduğu halda, hansısa danışıqlarda iştirakdan çəkinəcəyimiz yoxdur!

Bu yerdə, Prezident İlham Əliyevin məşhur sözlərini xatırlatmaq istərdim: "Nə vaxt, nəyi, necə etmək lazımdır, bunu biz bilirik. Yaxın tarix dəfələrlə bunu göstərib, həm siyasi müstəvidə, diplomatik müstəvidə, eyni zamanda, döyüş meydanında. Nəyi ediriksə, dəqiqliklə edirik".

Bugünədək aparılan dövlət siyasəti, o cümlədən sentyabrın 27-dən başlayan əks-hücum əməliyyatları dövlət başçımızın fikirlərinin tam əsaslı olduğunu bir daha təsdiq edir. İstər danışıqlar masasında, istərsə hərb meydanında atılan hər bir addım düşünülüb və dəqiqdir. Bu addımlar bizi əsas hədəfə daha da yaxınlaşdırır.

***İşimiz haqq işidir, biz qalib gələcəyik!***

**Qənirə PAŞAYEVA,**
**Milli Məclisin Mədəniyyət komitəsinin sədri**

Xalq qəzeti.- 2020.- 13 oktyabr.- S.8.